# FİLMOQRAFİYA

## ŞUŞADA ÇƏKİLƏN FİLMLƏR

## *Şuşanın 270 anı (film, 2022)*




**Janr:** bədii-sənədli film

**İdeya müəllifi**: İlkin Əhmədov

**Redaktor:** Kərəm Ələsgərov

**İstehsalçı**:” Cəmiyyətin və Medianın inkişafı” ictimai birliyinin Qeyri-hökumət təşkilatlarına Dövlət dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra etdiyi “ Şuşanı tanıyaq, tanıdaq!” layihəsi çərçivəsində ərsəyə gəlib.

https://www.youtube.com/watch?v=IZWmDyuiA4U

## *Şuşa, sən azadsan! (film, 2021)*




**Janr**: sənədli film
**Rejissor:** Cavidan Şərifov
**Baş prodüser:** Arzu Əliyeva
**Ssenari müəllifi:** Rasim İsmayılov
**İstehsalçı:** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Bakı Media Mərkəzi” və “Salnaməfilm” studiyası
**Filmin növü:** sənədli film
**Rəng:** rəngli
**Ölkə:** Azərbaycan
**İl:** 2021

https://www.youtube.com/watch?v=ndOiRxjYflo

# ***Natəvan (film, 1982)***




## Məzmun

Film görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr olunmuşdur.

Kinolentdə nəğməkar şairənin poetik yaradıcılığı ilə yanaşı nəinki Azərbaycanda, eləcə də bütün Şərq ölkələrində böyük şöhrət qazanmış əlvan naxışlı əl işləri, zərif butalı tikişləri, rəsmləri, fransız yazıçısı Aleksandr Dümanın ona bağışladığı fil sümüyündən şahmat fiqurları, dağlardan və sıldırım qayalardan Şuşaya çəkdirdiyi Xan qızı bulağı öz əksini tapmışdır.

**Film üzərində işləyənlər**

**Rejissor:** Xamiz Muradov
**Ssenari müəllifi:** Məmməd Araz
**Operator:** Vladimir Konyagin
**Səs operatoru:** Şamil Kərimov

https://www.youtube.com/watch?v=vinrMENLPgA

# ***Oxuyur Şövkət Ələkbərova (film, 1970)***



**Janr:** musiqili
**Rejissor**: Nurəddin Tağıyev
**Ssenari müəllifi:**Fərman Kərimzadə
**Operator:**Nadir Zeynalov
**İstehsalçı:**"Ekran"
**İlk baxış tarixi:** 1970
**Filmin digər adı:**Şövkətin mahnıları
**Filmin növü:** qısametrajlı sənədli televiziya film-konserti
**Müddət:** 25 dəq.
**Dil** azərbaycanca (titrlər ruscadır)
**İl:** 1970
**Texniki məlumatlar:** 2 hissə
**Rəng**: ağ-qara

https://www.youtube.com/watch?v=ee0cGCOxHLA

# *Bülbül (film, 1968)*




## Məzmun

Film xalqımızın sevimli sənətkarı, SSRİ xalq artisti, SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli opera müğənnisi, xanəndə, musiqi folkloru tədqiqatçısı Bülbül Məmmədovun anadan olmasının 70 illiyinə həsr edilmişdir.

Film bizi müğənninin uşaqlıq illəri, onun boya-başa çatdığı musiqiçilər vətəni Şuşa şəhəri ilə tanış edir. Kadrlar bir-birini əvəz edir. Budur, Bülbül Azərbaycan Dövlət Konservatoriyasının tələbəsidir... Avropa vokal mədəniyyətinin mərkəzi Milan şəhəri... Sevdiyi sənətin sirlərinə dərindən yiyələnən Bülbül burada təhsil alır...

Kadrlar böyük sənətkarın həyat və yaradıcılığının ayrı-ayrı mərhələlərini göz önündə canlandırır.

Film iki hissədən ibarətdir. 2-ci hissə Bülbülün səhnə fəaliyyətindən danışır. Burada şair Süleyman Rüstəm, bəstəkar Qara Qarayev, müğənni S. Kozlovski görkəmli müğənni Bülbül haqqında xatirələrini söyləyirlər.

## Film haqqında

Filmdə arxiv materiallarından-şəkil və kino sənədlərindən istifadə edilmişdir.

## Filmin heyəti

### Film üzərində işləyənlər

**Rejissor:** Musa Bağırov

**Ssenari müəllifi:** Kərim Kərimov

**Operator:** Əlibala Ələkbərov

**Səs operatoru:** Şamil Kərimov

https://www.youtube.com/watch?v=8IcRwDE0zRM

# *"Koroğlu"(film, 1960)*



**Ssenari müəllifi:** Sabit Rəhman
**Quruluşçu rejissor:** Hüseyn Seyidzadə

**Məzmunu**

Qəhrəmanlıq kino dastanı əfsanəvi qəhrəman **Koroğlu** (Əfrasiyab Məmmədov) haqqında eyniadlı məşhur xalq dastanının ekran variantıdır.

Burada Azərbaycan xalqının yadelli işğalçılara və yerli zülmkarlara qarşı apardığı mübarizədən danışılır.

**Film haqqında**

- Film geyim rəssamı Bədurə Əfqanlının kinoda ilk işidir.
- Film operator Şərif Şərifovun bədii kinoda ilk işidir.
- Film aktyor Ələddin Abbasovun kinoda ilk işidir.
- Film ilk rəngli tammetrajlı genişekranlı bədii filmdir.
- Filmin çəkilişi Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 40-cı ildönümünə həsr edilib.

https://www.facebook.com/Az%C9%99rbaycan

https://www.youtube.com/watch?v=wuRVEu9TvrA

# *"Gilan Qızı", (tammmetrajlı bədii film, 1928)*



**Məzmun**

Filmdə 1920-ci illərdə İranda gedən milli-azadlıq hərəkatından, qüvvəcə üstün olan şah və ingilis qoşunlarının güclü təzyiqi altında Gilanın faciəli süqutundan bəhs olunur.

**Film haqqında**

Film Yuri Slyozkinin "Tunc Ay" romanının mövzusu əsasında çəkilmişdir.

Film aktyor Lətif Səfərovun kinoda ilk işidir. Azərbaycan kinematoqrafı tarixində ilk dəfə bu filmdə qısa montajdan istifadə edilir. Bu da filmə dinamika qatıb.

Film çəkildiyi günlərdə yazıçı Seyid Hüseynin "Gilan qızı" adlı bir hekayəsi çıxmış və az vaxt ərzində geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. "Tunc ay" romanı kimi, "Gilan qızı" hekayəsi də eyni mövzuya həsr edilmişdir. Çox güman ki, rejissor hekayənin adını münasib görmüş və öz filmini də "Gilan qızı" adlandırmışdır.

https://www.youtube.com/results?search_query="GİLAN+QIZI"+FİLMİ

# *"Hacı Qara" (1928) filminə aid fraqment aşkar edilmişdir*

## Məzmun

Filmdə Azərbaycan bəyləri-nin, tacirlərinin, kəndlilərinin həyatı öz əksini tapmışdır.




## Film haqqında

- Film Mirzə Fətəli Axundovun eyniadlı pyesinin motivləri əsasında çəkilmişdir.
- **Rejissor:** Abbas Mirzə Şərifzadə
- Filmə dramaturqun başqa əsərlərindən əlavə obrazlar salınmış, habelə milli adət və ənənələrdən istifadə edilmişdir.
- Bu film kinodramaturq kimi Cəfər Cabbarlının kinoda ilk işidir. Film aktrisa Əzizə Məmmədovanın kinoda ilk işidir.Film aktyor Əli Qurbanovun kinoda ilk işidir.

https://www.youtube.com/watch?v=s9rPfWyutfY